**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 284/5** **27 dekabr 2016-cı il**

**Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) təsdiq etdiyi Yenilənmiş Beynəlxalq Audit Standartlarının tətbiqi barədə**

Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) təsdiq etdiyi Yenilənmiş Beynəlxalq Audit Standartlarının tətbiqi barədə Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, 2016-cı ilin maliyyə hesabatlarının auditi zamanı yeni tərtib edilmiş 701 saylı “Müstəqil auditor hesabatında əsas audit məsələləri haqqında məlumat vermə”, yenilənmiş 260 saylı “İdarəetməyə məsul şəxslərlə əlaqə”, 570 saylı “Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı”, 700 saylı “Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi”, 705 saylı “Müstəqil auditorun hesabatındakı rəyə edilən dəyişikliklər”, 706 saylı “Müstəqil auditorun hesabatinda izahedici paraqraf və digər məsələlər paraqrafı”, 720 saylı “Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti” Beynəlxalq Audit Standartlarının tətbiqini təmin etsinlər.

2. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın və qərarın 1-ci bəndində göstərilən Beynəlxalq Audit Standartlarının Azərbaycan dilinə tərcümə edilmiş mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara elektron formada çatdırılmasını təmin etsin.

3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Beynəlxalq audit standatları və beynəlxalq əlaqələr üzrə komitənin sədri N.Abbaslıya, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, 2017-ci ilin yanvar ayında yenilənmiş Beynəlxalq Audit Standartlarına dair seminarın keçirilməsini təmin etsinlər.

4. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasova, Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri E.İbrahimova, Beynəlxalq audit standatları və beynəlxalq əlaqələr üzrə komitənin sədri N.Abbaslıya tapşırılsın ki, bir ay müddətində bu qərarın 1-ci bəndində göstərilən Beynəlxalq Audit Standartlarının tətbiq edilməsi ilə əlaqədar qüvvədə olan metodik göstəriş və təlimatlara müvafiq dəyişikliklərin edilməsi üzrə təkliflərin hazırlanmasını təmin etsinlər.

5. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, Beynəlxalq Audit Standartlarının Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**